*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 188−193
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 188−193
DOI: https://doi.org/10.36719/2706-6185/61/188-193

# Mətn komponentlərinin bağlanmasında morfoloji vasitələrin rolu

**Fərqanə Məmmədova**

***Xülasə.*** *Məqalədə Azərbaycan dilində mətnin təşkili və onun sintaktik bütöv kimi formalaşması məsələsi araşdırılır. Göstərilir ki, mətn ayrı-ayrı cümlələrin mexaniki ardıcıllığı deyil, müəyyən fikir mərkəzi ətrafında birləşən və daxili əlaqələr hesabına bütövləşən mürəkkəb nitq vahididir. Mətn komponentlərinin əlaqələnməsində prosodik, leksik vasitələrlə yanaşı, qrammatik vasitələrin də rolu mühümdür. İsim, əvəzlik, feil kimi əsas nitq hissələri ilə yanaşı, bağlayıcılar, ədatlar və modal sözlər kimi köməkçi nitq hissələri də cümlələr arasında qrammatik bağlılığın yaranmasına xidmət edir. Bu vasitələr mətn daxilində fikrin ardıcıllığını təmin edir, cümlələr arasında əlaqəni gücləndirir və məzmunun bütövlüyünü qoruyur. Eyni zamanda, təkrarlardan qaçmağa və mətnin daha axıcı və anlaşıqlı olmasına şərait yaradır. Nəticədə mətn vahid fikir ətrafında formalaşaraq kommunikativ məqsədin daha effektiv ifadəsinə xidmət edir.*

***Açar sözlər:*** *mətn, sintaktik bütöv, qrammatik vasitələr, nitq hissələri, mətn sintaksisi*

---

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
E-poçt: ferqane.memmedova.92@inbox.ru
Daxil oldu: 30 Yanvar 2026; Qəbul edildi: 14 May 2026: Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The role of morphological means in the connection of text components

**Fergana Mammadova**

***Abstract.*** *The article examines the organization of the text in the Azerbaijani language and its formation as a syntactic whole. It shows that a text is not a mechanical sequence of separate sentences, but a complex linguistic unit that is unified around a central idea and becomes coherent through internal connections. In the linking of text components, grammatical means, along with prosodic and lexical ones, also play an important role. Main parts of speech such as nouns, pronouns, and verbs, as well as auxiliary parts of speech such as conjunctions, particles, and modal words, contribute to the grammatical cohesion between sentences. These means ensure the continuity of thought within the text, strengthen the connection between sentences, and preserve the overall integrity of the content. At the same time, they help avoid repetition and make the text more fluent and comprehensible.*

*As a result, the text is formed around a single idea and serves the more effective expression of communicative purpose.*

***Keywords:*** *text, syntactic whole, grammatical means, parts of speech, text syntax*

---

Baku Slavic University, Baku, Azerbaijan
E-mail: fergane.memmedova.92@inbox.ru
Received: 30 January 2026; Accepted: 14 May 2026: Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Elmi qrammatikalarda dilin mətn səviyyəsində quruluşu və komponentlərin bir-biri ilə əlaqələnməsi məsələsi xüsusi vurğulanır. Bu yanaşmalara görə sintaktik bütövün formalaşmasında müxtəlif leksik və qrammatik vasitələr əsas rol oynayır. Elmi ədəbiyyatda mətnin morfoloji, sintaktik və prosodik elementlərin köməyi ilə təşkil olunduğu qeyd edilir. Mətn daxilində anaforik və kataforik əlaqələr strukturun qurulmasında mühüm əhəmiyyət daşıyır. Sintaktik bütövün yaranmasında onun hissələri arasında qarşılıqlı əlaqə, semantik ziddiyyət və kommunikativ-paradiqmatik amillər ön plana çıxır. Nəticədə sintaktik bütöv eyni mövzu ətrafında kommunikativ baxımdan birləşərək strukturlaşmış vahid kimi formalaşır.

## Metodlar

Tədqiqatda Azərbaycan dilində mətn sintaksisi ilə bağlı elmi ədəbiyyatın təhlili aparılmışdır. Mətn komponentlərinin bağlanmasında iştirak edən morfoloji vasitələrin funksiyaları deskriptiv (təsviri) metod əsasında izah olunmuşdur. Material kimi müxtəlif elmi və bədii mətn nümunələrindən istifadə edilmiş, həmin nümunələrdə isim, əvəzlik, feil, bağlayıcı, ədat və modal sözlərin əlaqələndirici rolu kontekst daxilində araşdırılmışdır. Analiz zamanı komponentlərarası əlaqələrin növləri (anaforik və kataforik əlaqə) nəzərə alınmışdır.

## Nəticələr

Azərbaycan dilində sintaktik bütövlərin formalaşmasında fəal rol oynayan dil-nitq vasitələrini dörd əsas qrupa ayırmaq mümkündür: prosodik, leksik, morfoloji və sintaktik vasitələr. Fonetik, leksik, morfoloji və sintaktik mətnyaratma vasitələri arasında morfoloji vasitələr xüsusi çəkiyə malikdir. Sintaktik vasitələrdən təkrarlar qrammatik və üslubi vasitə kimi əsas mətnyaratma vasitəsidir (Rzayeva, 2025, s. 27). Prosodiya-nitqin seqmentüstü, fövqelseqment xüsusiyyətlərinin ümumi adı olub, tonun yüksəkliyi, uzunluğu, gücü, amplitududur" (Kazımov, 2007, s. 457). "Prosodik vasitələr" dedikdə ümumiyyətlə nitq prosesində cümlənin ton dəyişimi, ritm-melodiya axını, sürət (temp), fasilələr, vurğu və digər bu kimi xüsusiyyətlər nəzərdə tutulur. Hər bir sintaktik bütöv isə quruluşundan asılı olaraq özünəməxsus intonasiya ilə səciyyələnir.

Sintaktik bütöv digər sintaktik vahidlər kimi sözlərdən və leksik elementlərdən formalaşır. Bu səbəbdən onun yaranmasında sözlərin və ümumilikdə leksik vahidlərin rolu xüsusilə mühüm hesab olunur. Cümlələrin və sintaktik bütövlərin qurulması prosesində sözlər çevikliyi və dəyişkənliyi ilə seçilir, fikir axınının istiqamətlənməsinə xidmət edir. Bununla belə, mətnin formalaşması yalnız leksik vasitələrin hesabına başa çatmır; ayrı-ayrı müstəqil cümlələrin vahid mətn daxilində birləşməsi üçün başqa vasitələr də tələb olunur. Bu məqsədlə müxtəlif morfoloji göstəricilər, nitq hissələri və sintaktik elementlərdən istifadə edilir. Xüsusilə morfoloji vasitələr mətnin sərhədlərinin müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

**Müzakirə**

Mətn komponentlərinin bir-biri ilə əlaqələnməsində nitq hissələri daha çox semantik funksiya daşıdığı üçün dilçilikdə bu cür vasitələr leksik əlaqələndirmə vasitələri kimi qəbul edilir. Biz də nitq hissələrinin mətn daxilində sinonimlik, omonimlik, müqayisə, dəqiqləşdirmə və digər semantik münasibətlər yaratdığını nəzərə alsaq, bu əlaqənin leksik bağlılıq kimi adlandırılmasını məqbul hesab edirik. Bununla yanaşı, diqqətdən qaçırılmamalıdır ki, bu sözlər müxtəlif nitq hissələrinə aid olur və mətnin qurulmasında həm əsas, həm də köməkçi nitq hissələri mühüm rol oynayır.

Sintaktik bütövlərin müxtəlif hissələri arasında əlaqə yaradan isimlər isə iki əsas formada təzahür edir: birinci halda mətnin bir hissəsində haqqında danışılan isim digər hissədə konkretləşdirilir; ikinci halda isə həmin isim mətnin hər iki hissəsində təkrar olunaraq mətn parçalarını daha sıx şəkildə bir-birinə bağlayır və bütövlük yaradır. Məsələn: Mir Qadir ağa şükranlıqla: - "Çıxmayan cana həmişə ümüd var! Mıxı mismar eləyən dünyadır. Kim bilir nə olacaq - dedi. Amma ağanın ümidləri doğrulmadı. Mıxı mismar eləyən dünya Şura hökumətinin işləkləri qarşısında aciz dayanmışdı. Ağanın ailəsini, oğlunu-uşağını, yaxın qohum-əqrabasını bir-birinə qatıb dəmiryol stansiyasına apardılar. Yük vaqonuna doldurdular. Bir daha onları görən olmadı. Hətta onun kəmağıl oğluna da rəhm eləməmişdilər. Bu xəbəri eşidən Mir Qadir ağanın ürəyi hövüldədi. Müstəntiq onu növbəti dəfə dindirən vaxt nəfəsi getdi, daha qayıtmadı" (Camalzadə, 2016, s.103)

Nümunədə "ümid" mücərrəd ismi mərkəzi cümlədə əsas məna daşıyıcısı kimi çıxış edir. Digər cümlələr isə həmin ismi açmağa, izah etməyə yönəlir. Ümidin gerçəkləşməməsi Şura hökumətinin fəaliyyəti, ailə üzvlərinin, qohumlarının, hətta kəmağıl oğlunun yük vaqonlarına doldurulması və onlardan heç bir xəbər alınmaması kimi hadisələrlə əsaslandırılır. Bütün bu detallar əvvəlcə adı çəkilən və doğrulmayan "ümid" anlayışının açıqlanmasına xidmət edir. Beləliklə, mətnin müxtəlif qütbləri arasında ardıcıllıq, ziddiyyət, səbəb–nəticə münasibətləri formalaşır və isimlər fikrin vahid bir obyekt ətrafında cəmlənməsinə şərait yaradır.

Mətn komponentlərinin qütblər üzrə əlaqələnməsində təkrar olunan isimlər də mühüm rol oynayır. Mətnin hissələrini bir-birinə bağlayan əşya məzmunlu sözlər, yəni isimlər bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ümumiyyətlə, isimlər dilin lüğət tərkibində ən əsas söz qruplarından birini təşkil edir. Bu barədə M. Hüseynzadə belə qeyd edir: "isimlər yalnız maddi varlıqların deyil, bütün mənəvi və abstrakt anlayışların da adlarını bildirir" (Hüseynzadə, 2007, s.19).

Mətnin məna və struktur əlaqələrinin qurulmasında iştirak edən isimlər iki qrupa bölünür: xüsusi və ümumi isimlər, konkret və abstrakt isimlər. Bu qruplar içərisində xüsusi isimlər mətn komponentlərinin bir-biri ilə bağlanmasında daha aktiv rol oynayır. Mətndə xüsusi ismin işlənməsindən sonra gələn cümlə çox vaxt həmin ismə məna baxımından bağlı olur və onun davamı kimi çıxış edir. Bu bağlılıq sinonim əvəzləmələr və əvəzliklərin işlədilməsi ilə daha da gücləndirilir.

Sintaktik bütövün formalaşmasında əvəzliklərin xüsusi rolu vardır. Şəxs əvəzlikləri mətn hissələrini bağlayaraq onun mənasını zənginləşdirir və çoxqatlı edir. İşarə əvəzliklərinin sayının az olmasına baxmayaraq, onların funksionallığı; işlənmə məqamı, tezliyi digər əvəzliklərə nisbətən daha geniş və zəngindir. Bu əvəzliklər ismi, sifəti, sayı, zərfi əvəz edə bilir (Hacıyev, 2025, s. 255).

Mətnin quruluşunda əvəzliklər yeni bir funksiyada çıxış edir. Bu funksiya mətnin hissələri arasında zəncirvari əlaqənin yaradılmasında onların rolunu əhatə edir. Zəncirvari əlaqə mətnin elementləri arasında müxtəlif qrammatik vasitələrin birliyini əmələ gətirir (Kazımov, 2022, s. 84). Əvəzliklər vasitəsilə mətndə şəxs, əlamət və kəmiyyət haqqında dinləyiciyə ümumi şəkildə sual vermək və ya onların adını birbaşa göstərmədən ümumiləşdirilmiş ifadə yaratmaq mümkündür.

Əvəzliklər sintaktik bütövün tərkibində olan cümlələri bir-biri ilə əlaqələndirməklə yanaşı, ayrı-ayrı sintaktik bütövlər arasında da bağlayıcı rol oynaya bilir. Əvvəlki cümlələrdə ifadə olunan fikrin sonrakı hissələrlə əlaqəsi müxtəlif əvəzlik formaları vasitəsilə təmin edilir. Bu cür istifadə dildə təkrarçılığın qarşısını alan ən yayğın mexanizmlərdən biridir. Beləliklə, mətn daxilində hissələr arasında ardıcıllıq yaranır və sintaktik bütövlər daha sıx şəkildə bir-birinə inteqrasiya olunur.

Qeyd etmək lazımdır ki, əvəzliklər dil sistemində yalnız təkrardan yayınma məqsədilə formalaşmamışdır. Bəzi hallarda əvəzlikləri mətndən çıxarıb onların yerinə aid olduqları sözləri və ya söz birləşmələrini yerləşdirmək ya mümkün olmur, ya da bu, mətnin təbii axarını pozaraq onun üslubunu zəiflədir. Bu isə onu göstərir ki, əvəzliklər sadəcə əvəzetmə funksiyası daşımır, eyni zamanda müstəqil əlaqələndirici vasitə kimi də çıxış edir.

Əvəzliklər özlərinin işarə etdiyi obyektin və ya mərkəzi sözün əlamət və xüsusiyyətlərini ümumiləşdirərək bütöv şəkildə ifadə edir. Onların işlənməsi anaforik, kataforik və anaforo-kataforik əlaqə modelləri üzrə həyata keçirilə bilər. Anaforik işlənmə zamanı əvəzlik artıq əvvəlki cümlələrdə adı çəkilmiş obyektə istinad edir. Kataforik istifadə isə əvəzliyin mətn daxilində daha sonra izah ediləcək elementlərə yönəlməsini bildirir. Anaforo-kataforik əlaqə zamanı isə əvəzliyin mənası həm əvvəlki, həm də sonrakı mətn hissələri vasitəsilə aydınlaşır və beləliklə, o, iki istiqamətli əlaqələndirici funksiya yerinə yetirir.

Mətn daxilində cümlələr arasında əlaqənin qurulmasında mühüm rol oynayan vasitələrdən biri də feillərdir. Bəzi feillərin semantik ümumiliyi müxtəlif müstəqil cümlələrdə konkretləşərək açılır. Bu proses mürəkkəb sintaktik vahidlərin qütblər üzrə təşkilinə şərait yaradır. Mətnin yaranmasında sayların, eləcə də zaman və məkan bildirən sözlərin mühüm əhəmiyyəti vardır. Bəzi hallarda mətndə işlənən qeyri-müəyyən saylar sonrakı fikirlərin ardıcıllığını formalaşdırır və bu fikirlər daha sonrakı cümlələrdə izah edilərək dəqiqləşdirilir. Mətnlərarası əlaqəliliyi nəzərdən keçirərkən bu əlaqəliliyi aktuallaşdıran formal vasitələrin arasında çox mühüm yeri məhz müxtəlif tipli bağlayıcılar, zərflər və determinantların tutduğu qənaətinə gəlmək mümkündür. Belə ki, bu vasitələr zaman ardıcıllığı, additivizm, səbəb-nəticə və qarşılaşdırma kimi semantik əlaqələri makromətnin formalaşmasında əsas amilə çevirirlər (Abdullayev və b., 2012, s. 185).

Qoşmalar digər köməkçi nitq hissələrindən fərqli olaraq sintaktik bütövün komponentləri arasında məntiqi və qrammatik əlaqənin qurulmasında aktiv iştirak etmir. Buna baxmayaraq, bədii ədəbiyyatda bəzi qoşmaların  işlədildiyi müşahidə olunur. Müasir Azərbaycan dilində sintaktik bütövlərin formalaşmasında bağlayıcıların rolu olduqca böyükdür. Onların hamısı sintaktik bütövün hissələri arasında əlaqənin yaranmasına xidmət edir. Bu bağlayıcılar içərisində tabesizlik bağlayıcıları daha aktiv şəkildə çıxış edir. Ümumiyyətlə, mətnin komponentlərinin əlaqələnməsində bağlayıcıların, ədatların, əvəzliklərin, köməkçi sözlərin və s. rolu çox mühümdür (Abdullayev, 2007, s. 402).

Birləşdirmə bağlayıcıları yalnız tabesiz mürəkkəb cümlənin tərəflərini birləşdirməklə kifayətlənmir, həm də sintaktik bütövün komponentlərini əlaqələndirərək onların arasında məntiqi və qrammatik bağlılıq yaradır. Azərbaycan dilində sintaktik bütövlər daxilində qarşılaşdırma bağlayıcıları da geniş şəkildə istifadə olunur. Onlar ya eyni sintaktik bütöv daxilində verilmiş xüsusiyyətləri müqayisə edir, ya da bir-birinə zidd fikirləri qarşılaşdıraraq onların əlaqələndirilməsini təmin edir.

Bundan başqa, qarşılaşdırma, bölüşdürmə, iştirak bildirən bağlayıcılar və  da mətn komponentlərinin bağlanmasında fəal iştirak edir. Tabelilik bağlayıcıları da sintaktik bütövü təşkil edən hissələr arasında əlaqənin yaranmasında mühüm rol oynayır. Azərbaycan dilində xüsusilə “ki” bağlayıcısı mətn daxilində geniş və fəal şəkildə istifadə olunur.

Sintaktik bütövün hissələri arasında əlaqə yaradan köməkçi nitq hissələrindən biri də ədatlardır. Ədatlar mətnə müxtəlif məna çalarları əlavə edir, fikrin daha aydın və ardıcıl ifadə edilməsinə şərait yaradır. Onlar oxucunun diqqətini aid olduqları söz və ya ifadə üzərinə yönəldir, həmin hissənin məntiqi baxımdan daha çox vurğulanmasına kömək edir.

Ədatların müəyyən bir qrupu əşya və hadisələrə işarə etmək, eləcə də cümlə daxilində aid olduğu sözün mənasını gücləndirmək və ona xüsusi diqqət yönəltmək funksiyasını yerinə yetirir.

Qüvvətləndirici ədatlar aid olduğu komponentin mənasını qüvvətləndirir. Ədatların bu qrupuna *ən, lap, daha, daha da, bir daha, düm, ha, yenə* sözlərini daxil etmək olar (Kazımov, 2010, s. 374). Məsələn:

-Lap yanıb-töküldüm, bu gün elə onu məğlub etmək istəyirdim ki... Sənin üçün mürəbbə də gətirimmi? (Əfəndiyev, 2005, s. 162)

Ədatların bir qismi cümlə komponentinin və ya ifadənin mənasının daha dəqiq və konkret şəkildə müəyyənləşdirilməsinə xidmət edir. Digər bir qrup ədat isə işlənən hissəyə məhdudlaşdırma çaları qatır.

Ədatların müəyyən bir qrupu cümlə komponentlərində arzu, məsləhət, təkid, xəbərdarlıq, sövqetmə və diqqətin cəlb olunması kimi müxtəlif məna çalarlarının yaranmasına şərait yaradır. Əmr məzmunlu ədatlarla yanaşı, Azərbaycan dilində təsdiq və inkar bildirən ədatlar da sintaktik bütövün komponentləri arasında əlaqənin formalaşmasına xidmət edir.

Modal sözlər də sintaktik bütövü təşkil edən komponentlər arasında məntiqi və qrammatik əlaqənin yaranmasına təsir göstərir. Sintaktik bütöv daxilində modal sözlərin müxtəlif növləri fəal şəkildə işlənir. Onların müəyyən bir hissəsi həqiqilik mənası ifadə edir. Belə modal sözlər cümlə daxilində işlədilərək ifadə olunan fikrin gerçəkliyini daha da gücləndirir və modallıq çalarını artırır. Gerçəkliyə uyğunluğun qəti təsdiqini bildirənlər: əlbəttə, həqiqətən, şübhəsiz, doğrudan, doğrudan da, doğrudan-doğruya, heç şübhəsiz ki, doğrusu və s. (Xəlilov, 2007, s. 333).

Ehtimalı ifadə edən modal sözlər sintaktik bütövün tərkib hissəsinə daxil edilərsə, cümlədə deyilən fikir şübhəli xarakter qazanır və inam azalır. Gerçəkliyə uyğunluğa ehtimal olunduğunu bildirən modal sözlər: bəlkə (də), deyəsən, görəsən, görən, yəqin (ki), olsun ki, olmaya, yoxsa, güman ki, tutaq ki (Hacıyev, 2025, s. 518). Məsələn:
Dadaş başını qaldırdı:
- Hə, hə, əlbəttə, yadımdadır. Yəhya, zəhmət çək, Təhminəni çağır, bir müqavilə doldursun.
Təhminə otağa girdi. Düyü mələri bağlanmışdı. Görəsən, Zaur deyib? Sıyırtmasından müqavilə çıxarıb doldurmağa başladı. Atanın adı, ünvanı... (Anar, 2004, s. 42)

Göstərilən nümunədə həm təsdiq, həm də güman-şübhə bildirən modal sözlərə rast gəlirik. Cümlələrdən aydın olur ki, bir modal sözün əlavə olunması bütün dialoqun kontekstinə hiss olunacaq dərəcədə təsir göstərir.

**Nəticə**

Ümumilikdə türk dillərində modal sözlər sintaktik bütövlərin yaranmasında qrammatik vasitə kimi iştirak edir və mətn daxilində komponentlər arasında əlaqənin qurulmasına şərait yaradır. Türkoloq A.N. Kononovun qənaətinə görə, mətnin struktur və semantik baxımdan tamlıq əldə etməsində modal sözlərin rolu olduqca mühümdür və bu baxımdan onların funksiyası xüsusi əhəmiyyət daşıyır.

**Ədəbiyyat**


1. Anar. (2004). *Seçilmiş əsərləri*. Lider.
2. Abdullayev, Ə., Seyidov, Y., & Həsənov, A. (2007). *Müasir Azərbaycan dili: IV hissə. Sintaksis*. Şərq-Qərb.
3. Abdullayev, K. M., Məmmədov, A. X., Musayev, M. M., Üstünova, K., Novruzova, N. S., Hüseynov, Ş. Q., və b. (2012). *Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər*. Mütərcim.
4. Camalzadə, Q. (2016). *Karxana*. Qanun.
5. Əfəndiyev, İ. (2005). *Seçilmiş əsərləri* (C. 1). Avrasiya Press.
6. Hacıyev, T. M. (2025). *Müasir Azərbaycan dilinin qrammatikası: Morfologiya*. Elm və təhsil.
7. Hüseynzadə, M. (2007). *Müasir Azərbaycan dili. Morfologiya* (III hissə). Şərq-Qərb.
8. Kazımov, İ. (2022). Mətn sintaksisi, yaxud sintaksisin mətni. *Azərbaycan dili və ədəbiyyat tədrisi, 2*(272), 81–96.
9. Kazımov, Q. Ş. (2007). *Müasir Azərbaycan dili. Sintaksis*. Təhsil.
10. Kazımov, Q. Ş. (2010). *Müasir Azərbaycan dili: Morfologiya: Ali məktəblər üçün dərslik*. Elm və təhsil.
11. Rzayeva, A. M. (2025). *İngilis və Azərbaycan bədii mətnlərində koheziya və informativlik* (Fəlsəfə doktoru dissertasiyasının avtoreferatı). Azərbaycan Dillər Universiteti.
12. Xəlilov, B. Ə. (2007). *Müasir Azərbaycan dilinin morfologiyası* (II hissə, təkrar nəşr). Nurlan.